Jl. Mas Putih Blok D No 29
Permata Hijau Kebayoran Lama
Jakarta Selatan 12210
Tel. : 549 19 39
Fax : 549 17 45
E-mail: jakarta@mission.mfa.gov.az

Azərbaycan Respublikasının Səfirliyi
Cakarta

Press-reliz

6-9 iyul 2009-cu ildə Azərbaycan Diplomatik Xidmətinin 90-cı ildönümü qeyd edilmişdir.

Azərbaycan Respublikasının Diplomatik Xidmətinin 90 illiyinə həsr olunmuş "Azərbaycan qlobal siyasətdə: xarici siyasətin formalaşması" adlı beynəlxalq konfrans, eyni adlı kitabın təqdimatı, Gəncə və Naxçıvanda konfranslar, Azərbaycan diplomatiyasına həsr edilmiş Muzeyin və Xarici İşlər Nazirliyinin ilk binasının üzərində xatirə lövhəsinin açılış mərasimi olmuşdur.

Konfransda Türkiyənin sabiq Xarici İşlər Naziri və Parlamentinin sabiq Sədri Hikmət Çətin, CNN agentliyinin baş siyasi icmalçısı Bil Şnayder, İsveçin Təhlükəsizlik və İnkişaf Siyasəti İnstitutunun direktoru Svante Kornel, Gürcüstanın sabiq Xarici İşlər Naziri Tedo Caparidze, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektorunun müşaviri Artyom Malqin, Azərbaycanın diplomatik missiyalarının rəhbərləri, Azərbaycanda akkreditə olunmuş xarici diplomatlar, müxtəlif dövlətlərin yüksək rütbəli rəsmiləri, alimlər və digərləri iştirak etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 90 illiyi (1919-2009)" Azərbaycan Respublikasının yubiley medalının və "Diplomatik xidmətdə fərqlənməyə görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi haqqında fərmanlar imzalamışdır.

Azərbaycanın diplomatik xidmətinin əsası 9 iyul 1919-cu ildə 1918-1920-ci illərdə fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyinin Katibliyinə dair qərarından sonra qoyulmuşdur. Azərbaycan Demokratik Respublikasının 16 xarici ölkərdə diplomatik missiyaları fəaliyyət göstərmişdir.

Azərbaycan diplomatiyasının ilk nailiyyətlərindən biri Azərbaycan Demokratik Respublikasının nümayəndə heyətinin 1919-cu ildə Paris Sülh Konfransında iştirakı və Millətlər Liqası Baş Assambleyasının təntənəli iclasının ilk 10 günlüyündə 11 yanvar 1920-ci ildə Müttəfiq Dövlətlər tərəfindən Azərbaycan dövlətinin rəsmi tanıdılması olmuşdur.

Müstəqilliyin 1991-ci ildə bərpasından sonra Azərbaycan Prezidenti 9 iyulun hər il Azərbaycan Respublikası diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı kimi qeyd edilməsi barədə fərman imzalamışdır.

16 iyul 2009-cu il